# Sosial problemlər həll olunur

## Böyük Pirəli kəndi

Aprelin 26-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüşü Böyük Pirəli kənd sakinləri ilə keçirilib.

Görüşdə rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə sosial sahədə aparılan islahatlar və iqtisadi nailiyyətlər barədə geniş məlumat verib, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, bununla bağlı görülən işlərdən danışıb.



Sonra rayonun xidmət təşkilatlarının rəhbərləri ərazidə gördükləri işlər barədə məlumat veriblər.

Səyyar görüşdə iştirak edən sakinlər rayonda, o cümlədən Böyük Pirəli kəndində görülən quruculuq işləri ilə bağlı dövlətimizin başçısına öz razılıqlarını ifadə ediblər. Onlar əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, ölkə vətəndaşlarına göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.



Tədbirdə çıxış edən kənd sakinlərindən Şakir Ağababayev, Ramin Hidayətov və başqaları yaşayış məntəqəsində yeni artezian quyusunun qazılmasını və işıq dirəklərinin dəyişdirilməsini xahiş ediblər.

Rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib və icrasını nəzarətə götürüb.

**“Qəbələ”**

# Qəbələ - qənirsiz turizm diyarı

***Ölkəmizin mövcud potensialı xarici və daxili turistləri cəlb etmək üçün bütün turizm növlərinin təşkilinə imkan verir. Regionların gözəl təbiəti, maraqlı tarixi abidələri, təhlükəsizlik və yüksək səviyyəli turizm infrastrukturu, beynəlxalq standartlara uyğun göstərilən peşəkar xidmət turistlər üçün daha cəlbedicidir.***

Son zamanlar turizm mərkəzlərindən biri kimi Qəbələ rayonuna maraq



artıb. Rayonumuzun füsunkar təbiəti, burada yaradılan müasir turizm obyektləri nəinki isti yay fəslində, hətta soyuq qış aylarında da turistlərin diqqətini cəlb edir. Hazırda rayonda irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyətdədir. Həmin obyektlərdən 19-u beş, dörd və üçulduzlu otellər və müasir istirahət mərkəzləridir. "Qafqaz" brendi altında fəaliyyət göstərən beşulduzlu otellər, o cümlədən “Qafqaz Resort”, “Qafqaz Riverside”, “Qafqaz Sport”, “Qafqaz Karvansaray” otelləri xidmətin səviyyəsinə görə ölkənin ən qabaqcıl otelləri sırasındadır. Ümumilikdə, rayondakı turizm obyektlərində gün ərzində 2500-dən çox qonağı qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.

Turist axının artmasına səbəb əvvəlki illərlə müqayisədə otel və restoran xidmətlərinin qiymətlərində endirimlərlə bağlıdır. İki və üçulduz otellərdə daha ucuz qiymətlər təklif edilir. Özəl evlərdə qalmaq isə çox ucuz başa gəlir. Burada hər kəs öz cibinin imkanlarına uyğun məkan seçə bilir.

Maraqlıdır ki, turistlər milli yeməklərimizə daha çox üstünlük verirlər. Qəbələnin kulinariyası tarixi kökləri və özünəməxsusluğu ilə regionun xüsusiyyətlərini özündə birləşdirir. Milli mətbəx və qonaqpərvərlik turizmin inkişafına böyük təkan verən səbəblərdəndir.

Turist axını bir tərəfdən yuxarıda qeyd etdiyimiz amillərlə, digər tərəfdən də Qəbələnin son illər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, bu rayona işgüzar səfərə gələnlərin sayının artması ilə bağlıdır.

“Tufandağ” Qış-Yay İstirahət Kompleksi, Stend və Ox Atıcılığı Kompleksi, “Qəbələnd” İstirahət və Əyləncə Mərkəzi turistlərin marağını daha çox cəlb edir.

Rayonumuzdakı dünya standartlarının bütün tələblərinə cavab verən Heydər Əliyev Konqres Mərkəzində hətta, dövlət başçılarının zirvə görüşləri keçirilir. Ənənəvi Qəbələ beynəlxalq musiqi festivallarına da hər il məşhur musiqiçilər, tanınmış ifaçılar toplaşır, çoxsaylı turistlər gəlir. Bu bir həqiqətdir ki, ölkəmizin beynəlxalq nüfuzunun formalaşmasında, onun dünyada tanıdılmasında burada keçirilən idman və mədəniyyət tədbirləri mühüm rol oynayır.

Turistləri bölgəmizə cəlb edən səbəblərdən biri də onun çox sayda tarix-mədəniyyət abidələri, bitki və heyvanat aləmi ilə zəngin olmasıdır. Meşələrimizdə və dağ otlaq sahələrində çoxlu sayda nadir quşlara və heyvanlara rast gəlmək olar.

Turizm sektoru rayonda iqtisadiyyatın əlverişli bir hissəsi olmaqla kiçik və orta sahibkarlıq üçün möhkəm baza yaradır, yeni iş yerlərinin açılmasına kömək edir, onun infrastrukturunun formalaşdırılmasında mühüm rol oynayır.

Qeyd edək ki, xüsusi biliklər sahəsinə, yəni nəzəri fəaliyyət sahəsinə çevrilməkdə olan turizm həm də səyahətlərin praktiki reallaşdırılması sahəsidir. Nadir təbiətə, iqlimə və tarixi-mədəni irsə malik olan Qəbələ isə müasir turizminin ən unikal brendinə çevrilməkdədir.

**“Qəbələ”**

# Kütləvi tibbi müayinələr davam edir

Rayonumuzda əhalinin kütləvi tibbi müayinədən keçirilməsi aksiyası mütəşəkkil qaydada davam edir. Fevralın 12-də başlanan aksiya çərçivəsində 60 min nəfərdən çox rayon sakini tibbi müayinədən keçib. Rayonun 40 yaşayış məntəqəsində, həmçinin 90 idarə, müəssisə və təşkilatlarda tibbi müayinələr başa çatıb.



18 yaşdan yuxarı 74 mindən çox insanın müayinədən keçirilməsi nəzərdə tutulan rayonumuzda indiyədək müayinə olunanların 2 min 600 nəfəri ambulator, 301 nəfər isə stasionar müalicəyə cəlb edilib, 145 nəfər müalicə üçün paytaxtın tibb müəssisələrinə göndərilib. 92 xəstə üzərində isə cərrahiyyə əməliyyatı aparılıb.

# Turizmə dair forum

Aprelin 20-də Qəbələ Konqres Mərkəzində “Tourism Lab” MMC-nin təşkilatçılığı ilə Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının da iştirak etdiyi “Azərbaycan Turizm Forumu” keçirilib.



Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası üzvlərindən 10 nəfər əlilliyi olan sənətkarın iştirak etdiyi forumda onların əl işlərinin satış sərgisi təşkil olunub.

Bir çox sahənin mütəxəssislərinin qatıldığı forum Azərbaycanın turizm mütəxəssislərinin və turizmə birbaşa və dolayısı ilə bağlı olan biznes adamlarının görüşdüyü yeganə turizm forumudur.

İki hissədən ibarət olan forumda çıxışlardan əlavə turizmin inkişafı ilə bağlı mövzular müzakirə olunub və təkliflər irəli sürülüb.

**“Qəbələ”**